Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.

Heydər Əliyev.



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 10 (9194) | 1 iyun 2015-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik


# Azərbaycan idman paytaxtına çevrilir

**Son illər bir sıra mühüm beynəlxalq tədbirlərin keçirilməsi üçün Bakı şəhərinin seçilməsi respublikamızın beynəlxalq nüfuzunu daha da yüksəldir. Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi tanınmağa başlayır və belə bir müsbət imicin formalaşmasında respublikada keçirilən beynəlxalq toplantıların əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.**

Respublikada müşahidə olunan dinamik iqtisadi tərəqqi ilə paralel şəkildə demokratik-hüquqi islahatların da dönmədən davam etdirilməsi, bu iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi nəzərdən keçirilməsi Azərbaycanı qlobal əhəmiyyətli tədbirlərin mərkəzinə çevirmişdir.

Bunun əsas səbəblərindən biri xalqımızın tolerantlıq düşüncəsinin yüksək inkişaf səviyyəsidir. Xalqlararası və mədəniyyətlərarası dialoqu müasir qloballaşma dövründə daha da inkişaf etdirmək, ona dəstək vermək, insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq dövlət siyasətinin mühüm tərkib hissəsi olaraq qalır. Dövlət başçısı İlham Əliyevin tolerantlıq və milli münasibətlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir. Dövlət başçısının 12 il müddətində bununla bağlı irəli sürdüyü prinsiplər, müəyyənləşdirdiyi strateji xətt, atdığı konkret addımlar Azərbaycanı həm də sivilizasiyalararası dialoq, mədəni-intellektual konsolidasiya və əməkdaşlıq mərkəzinə çevirmək məqsədindən irəli gəlir.

Rəsmi Bakının Avropa və dünya miqyaslı siyasi, iqtisadi və humanitar tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməsi, Şərqlə Qərb arasında multikultural mərkəz rolunu oynaması ilə şərtlənir. Azərbaycanın yüksək təşəbbüskarlığı ilə Bakıda təşkil edilən çoxsaylı mötəbər beynəlxalq tədbirlər buranı artıq regionun "diplomatik paytaxtı"na çevirib. Hələ üç il əvvəl "Eurovision-2012" kimi möhtəşəm musiqi yarışmasını yüksək təşkilatçılıqla keçirən Azərbaycan hazırda mötəbər idman tədbirinə - "Bakı-2015" ilk Avropa Oyunlarına hazırlığın yekun mərhələsindədir.

İlk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi həm də ölkəmizin insan hüquqları və demokratikləşmə, habelə milli-etnik, dini tolerantlığın təmini sahəsində əldə etdiyi böyük nailiyyətlərlə şərtlənir. Son vaxtlar Azərbaycanın iqtisadiyyatı və elmi-mədəni potensialı elə səviyyəyə çatmışdır ki, biz, sadəcə, Şərq və Qərb sivilizasiyaları arasında körpü rolunu oynamırıq. Biz bu sivilizasiyaların hər ikisinin daşıyıcısı olmaqla, multikulturalizm məkanına çevrilmişik. Müxtəlif xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibətin azərbaycanlıların mentalitetinə xas bir dəyər olduğunu nəzərə alsaq, fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyini özündə ehtiva edən multikulturalizmin Azərbaycan üçün xüsusi əhəmiyyətini dərk etmək çətin deyil.



Ölkədə etnik-milli və dini tolerantlığın inkişafında, habelə mötəbər beynəlxalq tədbirlərin təşkilində Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın da xidmətləri müstəsnadır. Ümummilli lider Heydər Əliyevin adını daşıyan fonda əzmlə rəhbərlik edən Mehriban xanım Əliyeva nəinki ölkədə, habelə xaricdə mədəni-dini abidələrin bərpasını əsas fəaliyyət prioritetlərindən biri hesab edir.

Son illər fondun təşkilatçılığı ilə Fransanın Strasburq şəhərində Kafedral kilsəsi, Parisdə Versal sarayının parkındakı abidələr, İtaliyanın paytaxtı Romadakı Müqəddəs Pyotr və Marsellina sərdabəsi bərpa edilib. Heydər Əliyev Fondu tərəfindən Hollandiya, Rusiya, Pakistan, Gürcüstan, Rumıniya, Misir və digər ölkələrdə bir sıra təhsil ocaqları müasirləşdirilib, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına dəstək verilib, Qəbələ Beynəlxalq Musiqi Festivalı kimi onlarla qlobal və mükəmməl layihələrə imza atılıb.

İlk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi həm də ölkəmizin son illər idmanın və bədən tərbiyəsinin, Olimpiya hərəkatının geniş vüsət aldığı ölkə olması ilə bağlıdır. Belə sanballı idman tədbirinin Azərbaycana həvalə edilməsi onu göstərir ki, respublikamız bütün sahələrdə, o cümlədən idmanda tərəqqi dövrünü yaşayır. Ölkəmizdə təşkil olunan Avropa, dünya çempionatları silsilə xarakter daşıyır. Son 12 ildə respublikada idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatları keçirilir. Bu tədbirlərin yüksək səviyyədə hazırlığı həm idmançılar, həm də idman ictimaiyyəti tərəfindən qeyd olunur. İdmançılarımızın mötəbər yarışlarda əldə etdiyi yüksək nailiyyətlər, dövlətin idmanın inkişafına dəstəyi, müasir idman infrastrukturunun mövcudluğu ilk Avropa Oyunlarının ölkəmizdə keçirilməsinə zəmin yaradan səbəblər sırasındadır. Təkcə onu demək kifayətdir ki, son 10 ildə Azərbaycanda 40-a yaxın müasir olimpiya mərkəzi tikilərək istifadəyə verilib.

Təsadüfi deyil ki, Avropa Olimpiya Komitəsinin (AOK) prezidenti Patrik Hikki ilk Avropa Oyunlarının Bakıda keçirilməsi ideyasını dəstəkləyərkən Bakının müasir infrastruktura malik meqapolis olduğunu xüsusi qeyd etmişdi. İyunun 12-dən 28-dək bütün dünyanın diqqəti yenidən Azərbaycana yönələcək. 20 idman növü üzrə 6 mindən çox idmançının iştirak edəcəyi mötəbər idman yarışı Azərbaycanın potensialını bir daha dünyaya nümayiş etdirəcək. Xatırladaq ki, "Bakı-2015" ilk Avropa Oyunları çərçivəsində keçiriləcək 20 idman növündən 11-i "Rio-2016" Yay Olimpiya Oyunları üçün müxtəlif kvalifikasiya imkanları nəzərdə tutur. Tam əminliklə demək olar ki, Avropa Oyunlarında yüksək nəticələr əldə edəcək Azərbaycan idmançılarının növbəti hədəfi "Rio-2016" olacaq.

Azərbaycan son illər dünya miqyaslı bir sıra idman yarışlarını uğurla təşkil edərək beynəlxalq və Avropa Olimpiya komitələrinin etimadını qazanıb. Elə bunun nəticəsidir ki, 2013-cü il iyulun 23-24-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) səkkizinci hesabat-seçki Baş Assambleyası çərçivəsində federasiyaya üzv olan Milli Olimpiya komitələri 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmək üçün Azərbaycanın namizədliyinə səs veriblər. Tam səs çoxluğu ilə ölkəmizin 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi barədə qərar qəbul edilib. 57 ölkəni təmsil edən idmançıların qatılacağı yarışın əsas şüarı "Həmrəylik bizim gücümüzdür" seçilib. 2013-cü il sentyabrın 22-dən oktyabrın 2-dək İndoneziyanın Palembank şəhərində keçirilmiş III İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi zamanı İHİF-in bayrağı Azərbaycana verilmişdi. IV İslam Həmrəyliyi Oyunlarına 2017-ci ildə Azərbaycanın ev sahibliyi etməsi ilə bağlı İslam Həmrəyliyi

İdman Federasiyası ilə müqavilə imzalanıb. IV İslam Həmrəyliyi Oyunları 2017-ci ildə may ayında - Ramazan ayından əvvəl təşkil olunacaq. Yarışın proqramına 19-20 idman növü daxil ediləcək ki, bunlar da "Bakı-2015" I Avropa Oyunlarının proqramı ilə qismən də olsa, üst-üstə düşəcək. IV İslam Həmrəyliyi Oyunlarında ağır atletika və zorxana kimi idman növləri üzrə yarışlar keçiriləcək. İdmançıların "Bakı-2015" üçün nəzərdə tutulan Atletlər kəndində yerləşdirilməsi nəzərdə tutulub. 2016-cı ildə ölkəmizdə şahmat üzrə Olimpiada, "Formula-1" üzrə Avropa Qran-pri yarışları keçiriləcək. Bütün bunlar dünyada Azərbaycanın həm də mötəbər idman tədbirlərinin keçirildiyi məkan olduğunu bir daha nümayiş etdirəcək.

Azərbaycanın regionda lider mövqeyini qoruyub saxlaması və bütün sahələrdə davamlı inkişaf etməsi ölkəmizin beynəlxalq arenada nüfuzunu daha da artırmışdır. Əldə olunan nəticələr deməyə əsas verir ki, dövlət başçısı İlham Əliyevin uğurla yürütdüyü bu siyasət nəticəsində respublikamız ən qısa zamanda inkişaf etmiş dövlətlər səviyyəsinə yüksələcək.

**"Azərbaycan"**

BAŞ REDAKTORDAN

# AVROPANIN "ÜRƏYİ" BAKIDA DÖYÜNƏCƏK

**Dünya tarixində ilk dəfə keçiriləcək I Avropa Oyunlarının start götürməsinə sayılı günlər qalıb. İlk Avropa Oyunlarının keçiriləcəyi bütün idman arenaları tam hazır vəziyyətə gətirilib. İdman obyektlərinin ətrafındakı abadlıq-quruculuq işləri də yekunlaşmaq üzrədir. İdmançıların hərəkət edəcəkləri yollara "Bakı-2015" loqosu həkk olunaraq xüsusi zolaqlar ayrılıb.**



Paytaxtın hər yerində müxtəlif idman hərəkətlərini təsvir edən stendlər quraşdırılıb və bu işlər hazırda davam etdirilir. Bir sözlə, möhtəşəm paytaxtımız Bakı növbəti bir yarışa da ev sahibliyi etməyə tam hazırdır.

Tarixdə ilk Avropa Oyunlarının keçirilməsi barədə qərar 8 dekabr 2012-ci il tarixində, Romada Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında qəbul edilib. Olimpiya ənənəsinə uyğun olaraq, estafet qədim od məbədi olan "Atəşgah"dan başlayaraq məşəl 47 gün ərzində Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq, Oyunların açılış mərasimində Bakı Olimpiya Stadionuna gətiriləcək. Ümumilikdə 253 medal uğrunda mübarizə aparılacaq və 12 idman növü üzrə "Rio-2016" Yay Olimpiadasına təsnifat imkanları veriləcək. Bu möhtəşəm idman tədbirinə qatılan idmançılar və ölkəmizə gələn xarici qonaqlar, məşqçilər Bakıdan öz vətənlərinə ən xoş təəssüratla qayıdacaqlar. Odur ki, Azərbaycanın dünyaya bir daha tanıdılması baxımdan I Avropa Oyunlarının əhəmiyyəti çox böyükdür.

Azərbaycan rəhbərliyinin böyük qayğısı, Təşkilat Komitəsinin yüksək təşkilatçılığı sayəsində Avropa Oyunlarının keçirilməsinə bütün lazımi şərait yaradılmışdır. Avropa Oyunları üçün 4 obyekt qrupu üzrə 18 yarış obyekti mövcuddur. Daimi idman obyektlərinin sayı 12-dir. Onlardan beşi - Milli Gimnastika Arenası, BMX Veloparkı, Bakı Su İdmanı Mərkəzi, Bakı Atıcılıq Mərkəzi və Milli Stadion təzə tikilib. Su Polosu Arenası, Çimərlik Arenası, Basketbol Arenası, Dağ Velosipedi Veloparkı, triatlon və velosiped yarışları üçün nəzərdə tutulmuş altı müvəqqəti idman obyekti də yaradılmışdır.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin "Bakı 2015" I Avropa Oyunları ilə bağlı açıqlaması bu mötəbər idman tədbirinin böyük əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir: "Fikrimcə, bu, Avropa Oyunlarını qitə idmanının ən yüksək zirvədə dayanan idman tədbirinə və artıq yeni yaradılmış brendə çevirəcək. Bu, daha yaxşı nəticələr əldə etmək üçün bir başlanğıc olacaq. "Bakı 2015" Avropa Oyunları 55 ölkədə yayımlanacaq, 20 idman növü üzrə yarışlar təşkil olunacaq".

I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin istər idman, istərsə də digər sahələrdə inkişafına da müsbət təsir göstərəcək. Bu yarışlar gənclər arasında idmana marağın daha da artmasında əhəmiyyətli rol oynayacaq. 2012-ci ildə "Eurovision" musiqi yarışmasına ev sahibliyi edərək bu tipli yüksək tədbirləri keçirməyə qabil olduğumuzu göstərib Avropanın etimadını qazandıq. 2012-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi qərarının qəbul edilməsi də məhz ölkəmizə olan etimadın nəticəsidir.

Avropa Oyunlarının Bakıda keçirilməsi bizim üçün həqiqətən də çox qürurverici hadisədir. Bu oyunların paytaxtımızda təşkil olunması Azərbaycanın qüdrətini bütün dünyaya göstərəcək. Həmçinin bəzi idman növlərinin də ölkəmizdə məşhurlaşmasına və bu növdə idmançıların artmasına səbəb olacaq. Əgər bir idmançı öz ölkəsində yarışırsa, bu ona əlavə güc verir. Həm də hər bir idmançının yaxşı nəticə göstərərək Azərbaycanın adını yüksəklərə qaldırmaq, hər kəsə tanıtmaq şansı var. Yarışlarda idman arenalarına gedib idmançılarımıza dəstək verərək, onları qələbəyə ruhlandırmalıyıq.

Prezident İlham Əliyev bildirib: "İdmançılarımız Azərbaycanı beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında, eləcə də Olimpiya Oyunlarında layiqincə təmsil edirlər. Sonuncu Olimpiya Oyunları bizim üçün tarixi əhəmiyyətə malikdir. Çünki 2012-ci il London Yay Olimpiya Oyunlarında Azərbaycan əvvəlki illərlə müqayisədə ən yüksək nəticəni əldə etdi. Azərbaycan demək olar ki, 200 ölkə arasında 30-cu oldu. Gənclər arasında Olimpiya Oyunları da Azərbaycan üçün əlamətdar oldu. Yığmamız təxminən 200 ölkə arasında 10-cu oldu. Bu, onu göstərir ki, Olimpiya hərəkatının inkişafı, müasir idman qurğularının yaradılması siyasəti nəticə verir. Eyni zamanda, idman cəmiyyətimizin həyatının ayrılmaz hissəsinə çevrilib. Gənc nəslin idman fəaliyyətinə qoşulması və həvəsləndirilməsi məqsədini daşıyan dövlət proqramları nəinki ölkənin beynəlxalq yarışlarda nüfuzu, o cümlədən gənclərə uğurlu yolun göstərilməsi baxımından vacibdir. Eyni zamanda, fiziki sağlamlıq gənclərə bütün həyatları boyu yardımçı olur. Bunun sayəsində gənclər pis vərdişlərdən, alkoqoldan, siqaret çəkməkdən və narkotik maddələrdən uzaq olurlar".

Azərbaycanın dünya miqyasında nüfuzu durmadan artır. Bu işdə gənclər də uğurlu nəticələrə imza ataraq yaxından iştirak edirlər. İnanırıq ki, Azərbaycan ilk Avropa Oyunlarını çox möhtəşəm şəkildə keçirməklə tarix yazacaq.

İlk Avropa Oyunlarının keçirilməsi ilə bağlı yazdığım "Birinci Avropa Oyunlarının" adlı şeir məncə həm şeir sevərlərin, həm də idman sevərlərin ürəyincə olacaqdır.

***Bir ana yurdum var dünya gözəli,***
***Üçrəngli bayrağım, səkkiz guşəli.***
***Ölkəmdə alışıb yandı məşəli,***
***Birinci Avropa oyunlarının.***

***Dosta əl uzadıb verdik salamı,***
***Fərqi yox rəngi ağ, yoxsa qaramı.***
***Sülhdü, sağlamlıqdı məqsəd, məramı,***
***Birinci Avropa oyunlarının.***

***Bu, bir məsuliyyət, bu, bir qürurdu,***
***Qısa bir zamanda gör nələr qurdu.***
***Ilk ev sahibidi azəri yurdu,***
***Birinci Avropa oyunlarının.***

***Fəxr elə verəndə dosta varını,***
***Təmiz tut qəlbini, düz ilqarını.***
***Qazanaq biz qızıl medallarını,***
***Birinci Avropa oyunlarının.***

**Elçin İSMAYIL**

# 2015-ci il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Əsgərov Ayaz Nəriman oğlu | rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu<br>Alıyev Məmməd Oruc oğlu<br><br>Həsənov Mehdi Alı oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br>Memarlıq və tikinti şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |

***Qeyd:*** **1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :**

**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

# RAYONUMUZDA I AVROPA OYUNLARININ MƏŞƏLİNİN QARŞILANMA MƏRASİMİ KEÇİRİLMİŞDİR

**Respublikamızın həyatında tarixi hadisəyə çevriləcək I Avropa Oyunlarına sayılı günlər qalmışdır. Nəinki Avropanın, eləcə də bütün dünyanın idman həyatında mühüm hadisəyə çevriləcək bu yarışlara Azərbaycan tam şəkildə hazırdır. Bakıda, eləcə də Mingəçevir şəhərində yeni-yeni idman qurğuları inşa edilmiş, olimpiya kəndi salınmış, bu mühüm hadisəyə geniş hazırlıq işləri görülmüşdür.**

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın I xanımı, I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa İdman Oyunları Komitəsinin Prezidenti Partik Hikki, eləcə də 150-dən çox qonağın iştirakı ilə dövlətimizin başçısı tərəfindən "Atəşgah məbədində" I Avropa Oyunlarının məşəlinin alovlandırılmasından sonra bu möhtəşəm idman yarışının birinci hissəsinə start verilmişdir. Respublika Prezidenti tərəfindən alovlandırılan məşəl ölkəmizin bütün ərazisindən keçərək respublikamızın paytaxtına gətiriləcək və burada əsas məşəl alovlandırılacaqdır.

I Avropa Oyunlarının məşəli respublikamızın 30 rayonundan keçərək mayın 18-də Qazax şəhərinə gətirildi. Məşəlin qarşılanması ilə əlaqədar rayonumuzda böyük hazırlıq işləri görülmüşdür. Bu məqsədlə Heydər Əliyev prospekti boyunca yol kənarlarına al-əlvan güllər əkilmiş, hər tərəf yaşıllığa qərq olmuşdur. Ağacların dibləri ağardılmış, asfalt yollara xətlər çəkilmiş, şəhər başdan-başa nura qərq olmuşdur. Heydər Əliyev prospekti bayramsayağı bəzədilmişdir.

Həmin gün günorta saatlarında şəhərin mərkəzində böyük canlanma, bayram əhval-ruhiyyəsi var idi. Bayram libasına bürünmüş şəhərimizdə gənclər, idmançılar, veteranlar, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri I Avropa Oyunlarının məşəlini böyük maraqla və sevinc içərisində gözləyirdilər. Çox keçmədi ki, on minlərlə rayon sakininin və idmançıların iştirakı ilə məşəlin möhtəşəm qarşılanma mərasimi oldu. Rayonumuzun fəal gənclərindən olan İsmayılov Vüsal Fəxrəddin oğlu rayon sakinlərinin sürəkli alqış sədaları və gül-çiçək yağışı altında I Avropa Oyunlarının rəmzi qapısında məşəli qəbul etdi. Sonra H.Əliyev prospekti boyunca 3000 metr məsafədə məşəldarların yürüşü başladı. 10 nəfər qazaxlı məşəldar məşəli bir-birinə ötürərək yürüşü davam etdirdilər. Böyük coşqu altında hərəkət edən məşəldarlar oyunların rəmzi məşəlini H.Əliyev parkına gətirdilər. Sonuncu yürüşçü, rayonun fəal idmançı gənclərindən olan Əhmədov Tərxan İlham oğlu burada qurulmuş səhnəyə çıxaraq məşəli alovlandırdı.

Sonra isə I Avropa Oyunlarının məşəli ilə çıraq alovlandırıldı. Mərasim iştirakçılarının alqış sədaları altında çıraq 4 dəfə dünya, 6 dəfə Avropa çempionu Vəkilov Qismət Səxavət oğluna təqdim edildi. Çıraq ilk Avropa Oyunları başa çatanadək Heydər Əliyev Mərkəzində saxlanılacaq.

Respublikanın və rayonun incəsənət ustalarının təqdim etdikləri konsert proqramı tədbir iştirakçılarının məşəl sevincini daha da artırdı. Bir-birini əvəz edən şən mahnılar, gözəl nəğmələr, ürəyə yatan musiqi sədaları hər bir qazaxlının qəlbinə bir fərəh, fəxarət gətirdi.

Rayon sakinlərinin sevinc hisslərini onların üz-gözlərindən, gülümsəyən çöhrələrindən də duymaq olurdu. Hamı bir-birinə "Bayramınız mübarək" deyərək göz aydınlığı verirdi. Bu böyük sevinc duyğularını yaşadıqlarına görə rayon sakinləri Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirirdilər. Söhbət zamanı qeyd edirdilər ki, belə bir böyük, möhtəşəm idman yarışlarının Azərbaycanda keçirilməsi ölkə başçısının uğurlu xarici siyasətinin real məntiqi nəticəsidir.

Tədbir iştirakçılarının arzu və istəkləri isə bitib tükənmirdi. Öz sevinc duyğularını bir-biri ilə paylaşan tədbir iştirakçıları belə bir məşəlin Qarabağda, Xankəndində, Şuşada, Ağdamda və digər işğal olunmuş şəhərlərimizdə yandırılmasını arzu edirdilər.

Beləliklə, I Avropa Oyunlarının məşəli Qazaxda alovlandırıldı. Bu möhtəşəm tədbir rayonumuzun həyatında silinməz bir tarixə çevrildi. Rayon sakinləri xoş ovqatla, heç vaxt unudulmayacaq anlarla həmin tarixi günü yaşadılar. Tədbir atəşfəşanlıqla başa çatdı.

**Elçin İSMAYIL**











# Ölkənin Qərb qapısında idman bayramı

**Alov səyahətinin növbəti dayanacağı ölkənin qərb bölgəsinin qapısı sayılan Qazax rayonudur. Təqdimat mərasiminə dəstə-dəstə axışıb gələn sevincli, fərəhli insanlara baxdıqca ötən günlər yada düşür.**

1990-cı illərin əvvəllərində OMON başda olmaqla silahlı quldur birləşmələri bölgədə meydan sulayırdı. Qazax əldən gedirdi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev müdrik zəkası ilə hər yanda namərdləri susdurdu, sakitlik, sabitlik yaratdı. Dövlət başçısı Qazaxda, eləcə də ölkənin müxtəlif yerlərində baş qaldıran silahlı quldur dəstələrini real siyasətlə, Vətənə, xalqa məhəbbətlə susdurdu. Hər yanda bərpa-quruculuq dövrü başladı. Nadanların bəd əməllərindən sarsılmış Qazax illər keçdikcə sürətlə inkişaf edərək qısa müddətdə barlı, bəhrəli bölgəyə çevrildi...

Səhərdən bəri intizarla gözlənilən an gəlib çatır. Heydər Əliyev prospektinin başında məşəl gətirən karvan görünür. Əvvəlcədən müəyyən edilmiş məşəlçilər hazır vəziyyətdə dayanıblar. Alqış sədaları altında alov məşəli fəal ictimayyətçi Vüsal İsmayılova təqdim olunur. Rayonun say-seçmə övladları Vüqar Nəbiyev, Vüsal İsmayılov, Rəşad Əhmədov, Gündüz Abışov, Arif Mustafayev, Emin Mustafayev, Asiya Alhüseynova, Elvin Əmiraslanov, Səidə Məmmədova və Tərxan Əhmədov məşəli  bir-birinə ötürə-ötürə mərkəzi meydana doğru gedirlər.

Biz də Qazaxın dünəni və bu günü haqqında söhbət edə-edə meydana gedirik. Bayram libası geymiş şəhəri məftunluqla seyr edən həmsöhbətim Məhəmməd Alıyev iftixarla deyir ki, bir baxın, o illər hara, bu günlər hara! İndi Azərbaycanı bütün dünya tanıyır. Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin səyi ilə bir-birindən dəyərli layihələr icra olunur, ölkəmizin iqtisadiyyatı, siyasəti, mədəniyyəti hamını heyran edir. Dünyanın aparıcı dövlətləri Azərbaycanla hesablaşır. Elə I Avropa Oyunlarının məhz bizim ölkədə keçirilməsi Prezident İlham Əliyevin gündən-günə artan nüfuzunun nəticəsidir.

Bəli, Qazaxda da böyük işlər görülüb və görülür. Ölkədə ilk olimpiya-idman kompleksi, müalicə-diaqnostika mərkəzi, Qafqazda yeganə planetar məhz burada yaradılıb.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqram"larının icrası nəticəsində son illər neçə-neçə istehsal-emal müəssisəsi açılıb. Əkin-biçin sahələrində məhsuldarlıq artıb. Onlarca məktəb binası, uşaq bağçası-körpələr evi tikilib. Ən əsası isə budur ki, Avey dağının ətəyində, illik istehsal gücü bir milyon ton olan nəhəng sement zavodu istifadəyə verilib. Son illər rayonda sənaye məhsulu istehsalı beş dəfə artıb. İşıq, su, qaz problemi həll olunub. Ən ucqar kəndlərə belə yollar çəkilib, körpülər salınıb. Sahibkarlığın inkişafı ilə əlaqədar olaraq səkkiz mindən çox yeni iş yeri açılıb. Sərhəd bölgəsində yerləşən Qazax bax, beləcə aybaay, il-bəil ucalır, gözəlləşir, tanınmaz görkəm alır.

Əmək veteranı Qasım Əliyev deyir ki, bütün bunlar nankor ermənilər üçün əsl göz dağıdır. I Avropa Oyunlarının məhz Azərbaycanda keçirilməsi hamının sevincinə səbəb olub. Alov məşəli bölgələri gəzdikcə bu möhtəşəm idman tədbirinə maraq daha da artır.

İdman ustası Məhəd Mirzəyev deyir ki, I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizdə uğurla yeridilən idman siyasətinin təntənəsidir. Ona görə də hər yerdə bu mühüm tədbirə ciddi hazırlıq görülür. Ölkənin qüdrəti artdıqca yerlərdə idmanın inkişafı üçün geniş şərait yaradılır. Rayonumuzda müxtəlif idman növləri üzrə "Göyəzən", "Biomen", "Fəqan", "Aslanbəyli", "Olimp" klubları, "Olimpik" və "Göyəzən" MMC-ləri fəaliyyət göstərir. Qəsəbə və kəndlərdə bədən tərbiyəsinin kütləviliyinə xüsusi diqqət yetirilir. İlk Avropa Oyunlarına hazırlıq yerlərdə idmanın vəziyyətinə kütləvi baxış kimi də əlamətdardır. Söhbəti dinləyən Vüqar Nəbiyev maraqlı bir faktı söyləyir:

- Elə bu günlərdə rayonumuzda "Şahin" hərbi idman oyunlarının zona birinciliyi keçirilmişdir. Yarışda 11 rayonun komandası iştirak etmiş, Mingəçevir şəhərinin komandası yarışın qalibi olmuş, ağstafalılar ikinci, şəmkirlilər üçüncü yeri tutmuşlar. Əminəm ki, Avropa Oyunlarından sonra ölkə idmanının həyatında yeni yüksəliş dövrü başlayacaq.

Qazax sərkərdələr, pəhləvanlar, söz-sənət sahiblərinin vətənidir. Ölkəmizin tarixinə neçə-neçə unudulmaz şəxsiyyət bəxş edib.

Məşqçi-müəllim Fazil İsmayılov deyir ki, bu bayram günündə gəlin, "Fəxri qazaxlılar" parkına baş çəkək.

Baxırıq, çox dəyərli iş görülüb. Geniş bir sahədə, yaşıllıqların qoynunda, fəvvarələrin ətrafında onlarca mərd insanın barelyefləri sıralanıb. Azərbaycanın ilk topoqraf generalı İbrahim ağa Vəkilov, artilleriya generalı Əliağa Şıxlinski, ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux Qayıbov, İtaliyanın Milli Qəhrəmanı partizan Tahir İsayev, ədəbiyyatımıza ölməz əsərlər bəxş etmiş yazıçı və şairlərdən Mehdi Hüseyn, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Yusif Səmədoğlu...Ən baxımlı yerdə Molla Vəli Vidadi və Molla Pənah Vaqif qoşa dayanıblar. Bir qədər aralıqda, yaraşıqlı bağda böyük söz ustası, istiqlal carçısı İsmayıl Şıxlı mərmər postament üzərindən doğma diyara boylanır. Parkın başında da hələlik ölkədə yeganə olan "Ədəbiyyat muzeyi"!

Qazax sanki möcüzələr məskənidir. Hara gedirsən, sanki torpaq üzərində tarix yazılıb. Rayon mədəniyyət və turizm şöbəsinin müdiri Valeh Vəliyev deyir ki, ulu Qazax qədim və qiymətli abidələr diyarıdır. 12-ci yüzilliyin yadigarı Qırmızı körpü, Tunc dövründən qalan Babadərviş və Neolit-tunc dövründən xəbər verən Göytəpə yaşayış yerləri, Damcılı bulağı kimi dünya əhəmiyyətli abidələr buradadır. Rayonda 112 respublika və yerli əhəmiyyətli arxeoloji, memarlıq və monumental abidə, habelə dekorativ tətbiqi sənət nümunəsi qeydə alınıb. Yuxarı Əskipara və Şəkərqala kəndlərindəki məbədlər, Qıraq Kəsəməndəki dairəvi qüllə, Poylu kəndindəki məqbərələr, Qızılhacılı və Kazım körpüləri, habelə Qızılqaya abidəsi baxanları valeh edir.

Müstəqil ölkəmizin qərb qapısı tarixi anlar yaşayır. Heydər Əliyev meydanında qurulmuş səhnədə "Atəşgah"dan od almış məşəldən alovlanan simvolik çıraq Oyunlar başa çatana kimi saxlanmaq üçün 4 qat dünya və 6 qat Avropa çempionu Qismət Vəkilova təqdim olunur.

Qazax alov məşəlinin şəfəqinə bürünür. Mərasim başa çatsa da, bayram şənliyi davam edir, tarixi anlar hər ürəkdə min bir xatirə yaradır.

**Əhməd İSAYEV,**
**Azərbaycan**













# İlk Avropa Oyunlarının məşəli Qazaxda

**Son illərdə gözəlləşən, müasirləşən, tikinti-abadlıq işlərinin geniş vüsət aldığı Qazax şəhəri bayram libasına bürünüb. I Avropa Oyunlarının məşəl estafetinin qarşılanacağı Heydər Əliyev prospektində, eləcə də şəhərin Nizami, Vidadi, M.Carçıyev, M.Dilbazi, Şəhidlər Xiyabanı, Vaqif, Azadlıq, Bakı, N.Nərimanov, Ə.Şıxliniski küçələrində və Heydər Əliyev parkında qələbəlik, bayram əhval-ruhiyyəsi hökm sürür. Minlərlə rayon sakini, gənclər, idmançılar və veteranlar I Avropa Oyunlarının məşəlini böyük maraqla, sevinc içərisində gözləyirlər.**

Qədim "Atəşgah məbədi"ndə alovlandırılan I Avropa Oyunlarının məşəli Naxçıvandan başlayaraq respublikamızın 30 rayonundan keçərək mayın 18-də, günorta  Qazax şəhərinə gətirildi.

Heydər Əliyev prospektində Avropa Oyunlarının məşəlinin 10 minlərlə rayon sakini və idmançıların iştirakı ilə möhtəşəm qarşılanma mərasimi oldu. Minlərlə qazaxlının sevinc dolu davamlı alqışları və gül-çiçək yağışı altında rayonun fəal gənci İsmayılov Vüsal Fəxrəddin oğlu I Avropa Oyunlarının rəmzi qapısında məşəli qəbul etdi. Sonra məşəldarların yürüşü başladı. Heydər Əliyev prospekti boyunca 3 km-ə yaxın məsafədə 10 nəfər qazaxlı məşəldar bir-birini əvəz edərək yürüşü davam etdirib, 10 minlərlə rayon sakininin alqış sədaları və müşayiəti ilə məşəli Heydər Əliyev parkına gətirdilər. Sonuncu yürüşçü rayonun fəal idmançı gənclərindən olan Əhmədov Tərxan İlham oğlu burada qurulmuş səhnəyə çıxaraq məşəli alovlandırdı. I Avropa Oyunlarının məşəli isə yandırılan çıraq isə mərasim iştirakçılarının alqış sədaları altında  4 dəfə dünya, 6 dəfə Avropa çempionu Vəkilov Qismət Səxavət oğluna təqdim edildi. Çıraq ilk Avropa Oyunları başa çatanadək Heydər Əliyev Mərkəzində saxlanılacaq.

Sonra aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Partik Hikki və eləcə də 150-dən çox qonağın iştirakı ilə dövlətimizin başçısı tərəfindən "Atəşgah Məbədi"ndə birinci Avropa Oyunlarının məşəlinin alovlandırılması mərasiminin əks olunduğu videoçarx nümayiş etdirildi.

Respublikanın və rayonunun incəsənət ustalarının konsert proqramı qazaxlıların məşəl sevincini daha da artırdı.

Rayon sakinləri Avropa Oyunları məşəlinin Qazax şəhərinə gətirilməsindən qürur  duyduqları sevinci bir-birilə bölüşmüşlər. Söyləmişlər ki, Avropa Oyunlarının ilk dəfə ölkəmizdə keçirilməsi hər bir Azərbaycan vətəndaşı kimi bizi də sevindirir. Bu sevinci bizə bəxş etdiyinə görə Prezidentimizə dərin minnətdarlığımızı bildiririk. Arzu edirik ki, bu gün Azərbaycanın Qərb qapısı olan Qazaxda yandırılan alov tezliklə Qarabağımızda - Xankəndidə, Şuşada, Ağdamda və digər işğal olunmuş şəhərlərimizdə yandırılsın.

Mərasim rayon sakinlərinə və tədbir iştirakçılarına xoş ovqat bəxş etmiş, heç vaxt unudulmayan anlar yaşatmış və atəşfəşanlıqla başa çatmışdır.

**Vəli VƏLİYEV,**
**"Respublika" qəzeti.**

28 MAY RESPUBLİKA GÜNÜDÜR

# RESPUBLİKA GÜNÜ QEYD OLUNMUŞDUR



**Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 97 il ötür. 28 may 1918-ci ildə öz müstəqilliyini elan edən Azərbaycan dövləti mövcud olduğu 23 ay ərzində bir çox tarixi əhəmiyyətli işlər həyata keçirmişdir.**

Həmin gün Respublika Günü kimi hər il qeyd olunur. Respublikanın hər yerində olduğu kimi rayonumuzda da 28 may Respublika Günü ilə əlaqədar tədbir keçirilmişdir. Rayon İcra Hakimiyyətində dəyirmi masa ətrafında keçirilən tədbirdə idarə və müəssisə rəhbərləri, ziyalı gənclər iştirak etmişdir.

Rayon İcra Hakimiyyəti Başçısının I müavini Fərman Nağdalıyev tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, Azərbaycan Demokratik Respublikası süquta uğrasa da 1918-ci ildə onun Azərbaycana əkdiyi müstəqillik toxumu XX əsrin son on illiyində yenidən cücərib üzə çıxdı. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Beləliklə, XX əsrdə Azərbaycan ikinci dəfə siyasi müstəqillik əldə etdi. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayışından sonra respublikamızın müstəqilliyi məhv olmaq təhlükəsindən qurtuldu. Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir, ən böyük sərvətimizdir. Ümummilli liderin sözləri ilə desək, "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir".

Rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova tədbirdə məruzə ilə çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, fəaliyyətindən, demokratik hüquq və azadlıqların bərqərar olmasından ətraflı söz açmışdır.

Məruzə ətrafında çıxışlar olmuşdur. YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov, mədəniyyət və turizm şöbəsinin müdiri Valeh Vəliyev, AMİ Qazax filialının müəllimi Mübariz Süleymanov, "Avey" Dövlət Tarix Mədəniyyət Qoruğunun direktoru Səadət Əliyeva çıxış edərək öz arzu və istəklərini bildirmişlər.

Rayon İcra Hakimiyyəti Başçısının I müavini Fərman Nağdalıyev tədbirə yekun vuraraq tədbir iştirakçılarını və Azərbaycan xalqını 28 may Respublika Günü münasibətilə bir daha səmimi qəlbdən təbrik etmiş, gələcək işlərində uğurlar arzulamışdır.

**Xuraman ƏZİMOVA**

# Məktəblərdə "Son zəng" çalındı



**Rayonun 47 ümumtəhsil müəssisəsindən 34-də (qalanı orta və ibtidai məktəblərdir) XI sinfi bitirən 839 nəfər məzun üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq "Son zəng" tədbirləri keçirilmişdir.**

Tədbirlərdə rayon İcra Hakimiyyətinin və Təhsil Şöbəsinin məsul şəxsləri iştirak etmişdir. Bundan başqa, əmək və müharibə veteranları, ağsaqqallar, veteran müəllimlər və valideynlər, ictimaiyyət və KİV nümayəndələri də tədbirlərə dəvət olunmuşdur.

Bütün məktəblərdə "Son zəng" tədbiri Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır.

Sonra çıxışlar olmuşdur. Çıxış edənlər ölkəmizin yeni cəmiyyət quruculuğunda ən ümdə məsələlərdən birinin gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi, onlarda təhsilə, elmə marağın daha da artırılması və geniş dünyagörüşünün formalaşdırılması olduğunu söyləmişlər. Çıxış edənlər sonda "Son zəng" münasibətilə məzunları təbrik etmiş, onlara gələcək təhsillərində və həyatda uğurlar arzulamışlar.

Daha sonra məktəb məzunları onları həyatın yeni mərhələsinə hazırlayan müəllimlərə təşəkkürlərini bildirmişlər. Doğma məktəbi tərk etməkdən məyus olsalar da, məzunlar hər zaman öz uğurları ilə müəllimlərini sevindirəcəklərinə söz vermişlər.

Bütün məktəblərdə "Son zəng" mərasimləri şagirdlərin hazırladığı ədəbi-bədii kompozisiyalarla davam etdirilmişdir.



1 İYUN UŞAQLARI BEYNƏLXALQ MÜDAFİƏSİ GÜNÜDÜR

# UŞAQLAR QAYĞI VƏ DİQQƏT MƏRKƏZİNDƏDİR

***1 iyun Uşaqları Beynəlxalq Müdafiəsi günü 1950-ci ildən qeyd olunmağa başlamışdır. 65 il öncə qəbul olunmuş bu gün uşaqların hüquqlarının qorunması üçün böyük əhəmiyyət kəsb edir. Hər il qeyd olunması isə uşaqlara olan diqqət və qayğını bir daha sübut edir. Dünyanın əksər ölkələrində olduğu kimi ölkəmizdə də qeyd olunan bu bayram sakinlər tərəfindən böyük sevinc hissi ilə qarşılanır. Respublikamızda, eləcə də rayonumuzda uşaqlara daim diqqət və qayğı göstərilir.***

Hər il olduğu kimi bu il də rayonumuzda 1 iyun Uşaqları Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar tədbir keçirilmişdir. Qazax rayon İcra Hakimiyyətinin və Uşaq Fondunun birgə təşkilatçılığı ilə Mədəniyyət evində keçirilən tədbirdə bütün rayon sakinləri iştirak etmişdir.

Həmin gün mədəniyyət evinin böyük zalı əllərində Dövlət Bayrağı, al-əlvan rəngli şarlar və çiçəklər tutmuş uşaqların ixtiyarına verilmişdi. Bir-birindən gözəl, yaraşıqlı körpə fidanlara baxmamaq qeyri-mümkün idi. Tədbirə ən çox rəng qatanlar da elə kiçik yaşlı körpələr idi. Bu körpə fidanlar hər tərəfə işıq saçırdılar. Al-əlvan rəngdə geyindikləri paltarları ilə rəngbərəng çiçəklərə bənzəyirdilər. Qırmızı, sarı, yaşıl, mavi, ağ, eləcə də digər rəngdə olan paltarlarda onlar sanki göy qurşağını xatırladırdı. Hər tərəfdə balaca körpə əlləri ilə çalınan alqış səsləri, körpə gülüşləri eşidilirdi həmin gün. Uşaqlar deyir, gülür, şənlənir, xoşbəxt anlar yaşayırdılar. Sevinclərinin həddi-hüdudu yox idi. Axı, ildə olan 365 günün bir günü məhz 1 iyun günü onların ixtiyarına verilmişdi. Həmin gün elə böyüklər də uşaq olmuşdular bu bayramda. Onların xoş anlarına baxıb sevinirdilər. Hər kəs uşaqlığına qayıtmaq istəyirdi həmin gün. Bu hiss, bu duyğu onların gözlərindən oxunurdu sanki.

Göz oxşayan mənzərələrdən biri də şən, şux musiqi sədaları altında oynayan körpələrin rəqsi idi. Musiqi sədaları altında dövrə vurub oynamaları sanki şamın başına fırlanan pərvanəni xatırladırdı. Həmin gün elə bil bütün dünyanı onlara vermişdilər. Bir sözlə əsl bayram əhval-ruhiyyəsi hiss olunurdu.

Tədbir şəhər 1 və 2 saylı musiqi məktəbinin xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlamışdır.

Qazax rayon İcra Hakimiyyəti Başçısının humanitar məsələlər üzrə müavini Gulaya Həsənova tədbiri giriş sözü ilə açaraq körpə balaları təbrik etmişdir. Qeyd etmişdir ki, bu gün çox gözəl günlərdən biridir. Bizim balalar dünyanın ən bəxtəvər uşaqlarıdır. Həmişə uşaqlara ulu öndər Heydər Əliyev tərəfindən daim diqqət və qayğı göstərilmişdir. Bu gün bu diqqət və qayğı onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Tək uşaqlar günündə deyil, bütün günlərdə onların qayğısını çəkmək bizim ən ümdə borcumuzdur. Biz təkcə uşaqları deyil, həm də öz gələcəyimizi qoruyuruq. Axı, uşaqlar bizim gələcəyimizdir. Bir daha uşaqları bu bayram münasibətilə təbrik etmiş, xoş günlər arzulamışdır.

Uşaq Fondunun sədri Nemət Əliyev tədbirdə çıxış edərək 1 iyun Uşaqları Beynəlxalq Müdafiəsi Günü münasibətilə körpə balaları təbrik etmiş, dövlət tərəfindən uşaqlara göstərilən diqqət və qayğıdan danışmışdır.



Sonra söz tədbirin bəzəyi olan uşaqlara verilmişdir. Şəhər 1 və 2 saylı musiqi məktəbinin şagirdlərinin ifasında səslənən musiqi töhfəsi alqışlarla qarşılanmışdır. Tədbirdə daha çox fərqlənənlər isə rayonda fəaliyyət göstərən körpələr evi olmuşdur. Belə ki, 1 saylı körpələr evi uşaq bağçasının al-əlvan geyimdə olan balaca fidanları bayrama başqa cür rəng qatmışdır. Oynadıqları rəqslər, anaya, doğma Vətənə, müəllimə, ana dilinə aid söylədikləri şeirlər tədbir iştirakçıları tərəfindən böyük sevgi hissi ilə qarşılanmışdır.

Sonra tədbirdə mükafatlandırma olmuşdur. Yarış və müsabiqələrdə qalib gələn, istər idman, istər təhsil, istərsə də digər sahələrdə uğur qazanan bir qrup uşaqlara rayon İcra Hakimiyyəti Aparatı adından qiymətli hədiyyələr verilmişdir.

1 İyun Uşaqları Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar olaraq keçirilən tədbir öz gözəlliyi, fərqliliyi ilə seçilmişdir. Tədbirin bəzəyi olan kiçik yaşlı körpələr sanki ətrafa işıq saçırdılar. Öz kiçik dünyaları ilə bayrama rəng qatmağa çalışırdılar. Rəqs edən kim, mahnı oxuyan kim. Sanki sevinclərindən quş olub uçacaqdılar. Elə bil deyirdilər ki, sizin gözəl gələcəyiniz bizik. Odur ki, biri sevin, əzizləyin. Həm bizi, həm də gələcəyinizi qoruyun. Çünki dünya bizimlə gözəlləşir.

Sonda tədbir musiqi sədaları altında başa çatmışdır.

**Nüşabə HÜSEYNOVA**

# "Ağ ölüm - Qara ləkə" adlı layihə çərçivəsində silsilə tədbirlər keçirilmişdir

**"Öyrədərək Öyrənirik" Gənclərin İntellektual İnkişafına Dəstək İctimai Birliyi tərəfindən Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə 01 may-01 iyul 2015-ci il tarixlərində icra etdiyi "Ağ ölüm-Qara ləkə" adlı layihə çərçivəsində 6 tədbir həyata keçirilmişdir.**



Tədbirlər təhsil müəssisələrində tədris ilinin yekunlaşmasına az müddət qaldığı üçün may ayı ərzində (13-22 may tarixlərində) təşkil edilmişdir.

İlk tədbir 13 may 2015-c il tarixində Qazax rayon İ.Şıxlı adına Kosalar kənd tam orta məktəbində baş tutmuşdur. Növbəti tədbirlər ardıcıl olaraq, 14 may tarixində V.Musayev adına II Şıxlı kənd tam orta məktəbində, 15 may tarixində M.Həsənov adına I Şıxlı kənd tam orta məktəbində, 20 may tarixində N.Vəliyev adına Qazax şəhər 5 saylı tam orta məktəbində, 21 may tarixində Qazax Dövlət Sosial-İqtisadi Kollecində və nəhayət, 22 may tarixində Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialında həyata keçirilmişdir.

Tədbirlər zamanı təhsil müəssisələrinin direktorları-Kosalar kənd tam orta məktəbdən Taleh Məmmədov, II Şıxlı kənd tam orta məktəbdən Rafiq Süleymanov, I Şıxlı kənd orta məktəbdən Məzahir Qocayev, Qazax şəhər 5 saylı tam orta məktəbdən Nəsibə Tağıyeva, Qazax Dövlət Sosial-İqtisadi Kollecdən Tələbə Gənclər Təşkilatının sədri Elvira Əfəndiyeva, AMİ Qazax filialından Afaq Qasımova, rayon Polis Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla iş üzrə baş inspektoru, polis mayoru Sarif Qurbanov, Gənclər və İdman İdarəsinin əməkdaşı İsmayıl Süleymanov, vətəndaş cəmiyyətinin nümayəndələri Rafiq Muradov, Məhərrəm Göyüşoğlu, Ramil Göyüşov, Azər Əliyev, KİV nümayəndələrindən Nüşabə Hüseynova və rayonun aktiv gəncləri yaxından iştirak etmişdir.

Ümumilikdə 300 nəfərdən çox şagird, tələbə və müəllim heyətinin iştirak etdiyi tədbirlər zamanı narkomaniya və narkobiznesə qarşı mübarizə sahəsində həyata keçirilən belə tədbirlərin olduqca əhəmiyyətli olması vurğulanmışdır.

Tədbirlərdə iştirakçılara çap olunmuş bukletlər və köynəklər paylanılmışdır.

## Qazaxda 1308 hektar sahədə yazlıq bitkilər əkilib



**Qazax rayonunda torpaq mülkiyyətçiləri 1308 hektar sahədə yazlıq səpin işləri görüblər.**

Rayon statistika idarəsindən AZƏRTAC-a bildiriblər ki, bunun 7 hektarı bostan, 125 hektarı qarğıdalı, 542 hektarı yonca, 270 hektarı kartof, 171 hektarı paxlalı, 193 hektarı tərəvəz bitkiləridir.

Hazırda sahələrdə yaz-tarla işləri davam edir.

## Kənd Təsərrüfatının siyahıyaalınması

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 dekabr 2013-cü il tarixli 357 nömrəli qərarına uyğun olaraq 2015-ci ilin iyun ayında respublikada kənd təsərrüfatının siyahıyaalınması keçiriləcəkdir.**

Siyahıyaalmada məqsəd kənd təsərrüfatının, kənd təsərrüfatına xidmət edən sahələrin inkişafı ilə bağlı həyata keçirilən islahatlar nəticəsində kənd təsərrüfatının dinamikası, strukturu, inkişaf meylləri, maddi-texniki bazası haqqında ətraflı məlumatların əldə olunmasıdır.

Siyahıyaalma 2015-ci ilin iyun ayının 1-dən 30-dək Azərbaycan Respublikasında sorğu yolu ilə iyunun 1-i vəziyyətinə keçiriləcəkdir. Siyahıyaalınma mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfatlarda aparılacaq. Siyahıyaalmanı aparmaq üçün seçilib təlimatlandırılmış sayıcılar 30 gün müddətində əhali təsərrüfatlarında olaraq sorğu yolu ilə 2 nömrəli formanı dolduracaq.

Formada əhali təsərrüfatlarının mülkiyyətində və sahibliyində olan torpaqların sahəsi 01 iyun tarixinə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi, bağlar, üzümlüklər, mal-qaranın baş sayı, kənd təsərrüfatı binaları və tikililərinin mövcudluğu, kənd təsərrüfatı texnikası və avadanlığı, kənd təsərrüfatında işçi qüvvəsi və s. göstəricilər qeyd olunacaq.

Siyahıyaalmanı aparmaq üçün rayonda təsərrüfatların sayından asılı olaraq normaya uyğun 188 sayıcı və 20 təlimatçı seçilmişdir. Hər 10 nəfər sayıcının işinə 1 nəfər təlimatçı nəzarət edəcəkdir.

Siyahıyaalma materialları real vaxt rejimində kompyuterə daxil ediləcək və 2015-ci ilin sonuna tam yekunlaşacaq.

**Çingiz RƏHİMOV,**
**Qazax rayon Statistika İdarəsinin rəis müavini**

## "Müstəqil dövlətçiliyimizin parlaq səhifəsi"

**Mərkəzi Kitabxana Sistemi Mədəniyyət və Turizm şöbəsinin təşkilatçılığı ilə Mədəniyyət Mərkəzində 28 May Respublika Gününə həsr olunmuş "Müstəqil dövlətçiliyimizin parlaq səhifəsi" adlı dəyirmi masa keçirmişdir. Tədbirdə kitabxana və mədəniyyət müəssisələrinin işçiləri iştirak etmişdir.**

Mədəniyyət və Turizm şöbəsinin müdiri Valeh Vəliyev tədbiri giriş sözü ilə açaraq qeyd etmişdir ki, 28 May Respublika Günü dövlətimiz, xalqımız üçün bayramların ən önəmlisi, ən dəyərlisidir. Tarix boyu azadlığın həsrətini çəkib və ona qovuşmaq bütün xalqların arzusudur. Müasir Azərbaycanın əsl müstəqilliyi ulu öndər Heydər Əliyevin Azərbaycana 2-ci dəfə vəzifəyə gəlməsi ilə möhkəmləndi, əbədiləşdi və bu gün onun bəhrəsidir ki, Azərbaycan dünyanın siyasi aləmində öz sözünü deyir, möhrünü vurur.

MKS-nin multimedia kitabxanasının böyük kitabxanaçısı Hicranə Məmmədova "Müstəqil dövlətçiliyimizin parlaq səhifəsi" adlı məruzə ilə çıxış edərək bildirmişdir ki, 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti-müsəlman şərqində ilk dünyəvi demokratik dövlət yaradılmışdır. Bu respublika müstəqilliyimiz tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoymuşdur. Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə dövlət atributlarını yaratmış, milli ordu, milli pul, milli bank, azad seçkilər, beynəlxalq əlaqələr, Azərbaycanın bütövlüyünü təmin etmək və başqa böyük nailiyyətlər əldə etmişdir.

MKS-nin direktoru Solmaz Babanlı çıxışında qeyd etmişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman şərqində yaradılan ilk demokratik respublika idi. Cəmi 23 ay yaşayan bu dövlət müstəqil dövlətçiliyimizin əsaslarını yaratdı. Bu gün Azərbaycan Respublikası istər siyasi qüdrətinə, istərsə də hərbi-siyasi nüfuzuna görə regionun lider ölkəsidir.

MİHİ Qazax rayon komitəsinin sədri İsgəndər Qurbanov, MTŞ-nin məsləhətçisi Nailə Əliyeva tədbirdə çıxış edərək bildirmişlər ki, bu gün Cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır.

Sonda "Müstəqil dövlətçiliyimizin parlaq səhifəsi" adlı sərgiyə baxış keçirilmişdir.

**"GÖYƏZƏN"**

## "Bakı 2015 I Avropa Oyunları uşaqların gözü ilə"

***Rayon Mərkəzi Kitabxana Sisteminin Uşaq şöbəsi "Bakı 2015 I Avropa Oyunları uşaqların gözü ilə" adlı tədbir keçirmişdir. Tədbirdə Mədəniyyət və Turizm şöbəsinin işçiləri, şəhər 1 və 3 saylı tam orta məktəblərin şagirdləri və fəal oxucular iştirak etmişdir.***

MKS-nin direktoru Solmaz Babanlı tədbiri giriş sözü ilə açaraq kitabxanalarda oxucu kütləsi arasında Bakı 2015 I Avropa Oyunlarının geniş təbliğ edilməsindən ətraflı söz açmışdır.

MKS Uşaq şöbəsinin müdiri Firəngiz Abdıyeva, MİHİ Qazax rayon komitəsinin sədri İsgəndər Qurbanov, 1 saylı musiqi məktəbinin direktoru Gülnarə Əliyeva, Qazax Dövlət Rəsm Qalereyasının müdiri Münəvvər Xəlilova və başqaları çıxış edərək I Avropa Oyunlarının Azərbaycanda keçirilməsinin Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olduğunu vurğulamışlar.

Sonda "Bakı 2015 I Avropa Oyunları uşaqların gözü ilə" adlı kitab sərgisi və fəal oxucuların Avropa Oyunlarına həsr olunmuş rəsm əsərləri nümayiş olunmuşdur.

**Nüşabə HÜSEYNOVA**

## "Biz Sizdən öyrəndik qəhrəmanlığı"

**Qazax rayon Mərkəzi Kitabxana Sistemi Mədəniyyət və Turizm şöbəsi ilə birlikdə 1941-1945-ci illər müharibəsində qələbənin 70 illiyinə həsr olunmuş "Biz Sizdən öyrəndik qəhrəmanlığı" adlı görüş keçirmişdir. Mərkəzin akt zalında keçirilən tədbirdə mədəniyyət, kitabxana işçiləri, şəhər 2 saylı musiqi məktəbinin şagirdləri və fəal oxucular iştirak etmişdir.**

MİHİ Qazax rayon Komitəsinin sədri İsgəndər Qurbanov tədbiri giriş sözü ilə açaraq dövlət tərəfindən müharibə veteranlarına göstərilən böyük diqqət və qayğıdan söz açmışdır.

Mədəniyyət və Turizm Şöbəsinin müdiri Valeh Vəliyev, məsləhətçiləri Pəri Məmmədova, Nailə Əliyeva, şəhər Multimedia Kitabxana filialının böyük kitabxanaçısı Hicranə Məmmədova çıxış edərək 1941-1945-ci illər müharibəsində Azərbaycan xalqının qəhrəmanlıqları, Bakı neftinin, azərbaycanlı alimlərin rolu haqqında geniş məlumatlar vermiş, müharibənin canlı şahidləri olmuş veteranların indi gənclərimiz üçün hərbi bilik və mənəvi varlıq məktəbi olduqlarını bildirmişlər.

Böyük Vətən Müharibəsi Veteranı Xanqulu Süleymanov, veteran, Moskvanın müdafiəsində iştirak etmiş Nəbi Nəbiyev çıxışı zamanı canlı şahidi olduqları müharibə və onun törətdiyi dəhşətlər haqqında xatirələrini danışmışlar.

MKS-in direktoru Solmaz Babanlı çıxış edərək 1941-1945-ci illər müharibəsində Qələbənin 70 illiyi münasibətilə Mərkəzi kitabxana və filiallarda geniş səpkili, müxtəlif tədbirlərin keçirildiyini bildirmişdir. Faşizm üzərində şanlı qələbədə Azərbaycanın rolu olduğunu bugünkü gənclərə çatdırmaqda kitabxanaçıların üzərinə böyük vəzifələr düşdüyünü qeyd etmişdir.

Şəhər 2 saylı musiqi məktəbinin müəllim və şagirdlərinin ifasında mahnı və el havaları səsləndirilmiş, şəhər 1 saylı orta məktəbin II sinif şagirdi Kənan Mahmudov "Hərbi andım" adlı şeir söyləmişdir.

Tədbirdə Müharibə Veteranlarına hədiyyələr təqdim edilmişdir.

Tədbirin sonunda Mərkəzi Kitabxananın tərtib etdiyi "Bilsin Ana torpaq, eşitsin Vətən, müsəlləh əsgərəm mən də bu gündən" adlı sərgiyə baxış keçirilmişdir.

**Fatma HÜSEYNOVA,**
**MKS-nin metodika və biblioqrafiya şöbəsinin müdiri**

REDAKSİYAYA MƏKTUB VAR

# 100 İL YAŞAMAQ...

**Hörmətli redaksiya! Qəzetinizin fəal oxucularından biri də mənəm. Deməк olar ki, qəzetinizin bütün saylarını maraqla izləyirəm. Siz rayonda aparılan tikinti-quruculuq və həyata keçirilən məqsədyönlü işlərlə, ictimai-siyasi proseslərlə biz oxucuları məlumatlandırırsınız. Bundan başqa qəzetinizin səhifələrində bütün sahələrdə çalışan yaradıcı insanlara yer verirsiniz. Eyni zamanda oxucuların fikrini öyrənmək məqsədilə maraqlı suallarla müraciət edirsiniz.**

Qəzetinizin ötən sayında dərc edilən maraqlı bir rubrikanı oxudum: “Kim 100 il yaşamasa...” Bu çox düşündürücüdür. Bu sualın konkret cavabı yoxdur. Bu mənim subyektiv fikrimdir. Ona görə ki, insanın taleyi öz əlində olsa, bəlkə də 100 il yox, daha çox yaşamaq istərdi. Lakin qeyd edim ki, çox yaşamağın səbəbləri var. Əksər insanların cavabı bununla bağlı belə olur: Yaşadığı mühit, sağlam qida, rahat yuxu, düzgün həyat tərzi, fiziki əmək, idman... Bütün bunlar öz yerində. Mənim öz şəxsi fikrim tarixi köklərə istinad etməklə belədir: Birinci növbədə uzunömürlülüyün ən başlanğıcı genetik köklərlə bağlıdır. Bunu elm də, təbabət də sübut edir. Düzdür, sağlam iqlim şəraiti də buna təsir edir.

Çox yaşamaq mənə elə gəlir ki, heç də xoşbəxtlik deyil. Mənim üçün bir fikir mövcuddur. Sağlam yaşa, sağlam olaraq da dünyadan köç et. İnsan o zaman xoşbəxt ömür sürür ki, gördüyü işlərlə, əməlləri ilə yadda qalır. Təcrübə göstərir ki, həmişə müdrik insanlar, alimlər, loğmanlar, filosoflar uzunömürlü olublar. Bu ondan irəli gəlir ki, həmin insanlar kimə nə cür yanaşmağı başqalarından fərqli olaraq düzgün dərk ediblər. Onlar hisslərini cilovlamağı, ən çətin anlarda belə düzgün qərar verməyi digərlərindən daha tez bacarırlar. Həmişə də öz xeyirxah əməlləri ilə insanlara lazım olduqlarını sübut edirlər. Doğurdan da belə insanlar sağlam düşüncə ilə həyat sürürlər. Onların həyat tərzi, düşüncəsi biz insanlar üçün nümunə olmalıdır.

Onu qeyd etmək istəyirəm ki, həyatda baş verən hadisələrdən heç kim sığortalanmır, kimsə başına nə gələcəyini bilmir. Ona görə də gələcəyə bu gündən baxaraq addım atmaq lazımdır. İnsanlara layiq olduqları dəyəri verib, onları necə varsa elə qəbul etməliyik. Bütün bunların kökündə isə sağlam düşüncə dayanır.

Uzunömürlülük həm də alın yazısıdır. Allahın biz bəndələrinə bəxş etdiyi ömrü ləyaqətlə yaşamağa çalışmalıyıq. Uzunömürlülük alın yazısıdırsa, bu ömrü necə başa vurmaq isə bizdən aslıdır.

*Desələr 100 illə ömrü vur başa,*
*Sağlam ol, müdrik ol, bu ömrü yaşa.*
*100 ili ağılsız kim vursa başa,*
*Ağılsız yaşamaq qaxıncdır başa.*

*Zər ilə xərcləynən hər bir ayını,*
*Ömrünə yazılan ömür payını.*
*Sona saxladığın ahıl çağını,*
*Sağlam düşüncəynən, sağlam ol yaşa.*

*Pərvanə ömrünü gəl çəkmə dara,*
*Sirrini söyləmə nadana, yada.*
*80-90-nı versən də bada,*
*100 ili ağlına gətirmə daha.*

**Nəzakət İSGƏNDƏROVA,**
**şəhər 3 saylı körpələr evi-uşaq bağçasının müdiri.**

# 2015-ci ilin 1-ci rübündə Qazax rayonunun sosial-iqtisadi inkişafının makroiqtisadi göstəriciləri

2015-ci ilin 1-ci rübündə ölkədə istehsal edilmiş ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 5.3 faiz artaraq 11 milyard manata çatmışdır. Bu dövrdə ÜDM-in 34.7 faizi sənayedə, 12.5 faizi tikintidə, 11.9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində, 6.2 faizi nəqliyyat və anbar təsərrüfatında, 3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 2.2 faizi informasiya və rabitə xidmətlərində, 16.2 faizi isə sosial və digər xidmətlər sahəsində istehsal olunmuşdur. ÜDM istehsalı qeyri neft sektorunda 7% artmış, neft-qaz sektorunda isə 3.4% artmışdır.

2015-ci ilin 1-ci rübündə əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5.3 faiz artaraq 9.5 milyard manata çatmış, onun hər nəfərinə düşən həcmi orta hesabla 996.8 manat və ya ayda 332.3 manat təşkil etmişdir. Hər nəfərə düşən gəlirlərin artımı istehlak qiymətlərinin bahalaşmasını 1.2 faiz bəndi üstələyərək 4.0 faiz olmuşdur.

Respublika iqtisadiyyatının bütün sahələrində irəliləyiş olduğu kimi rayonun iqtisadiyyatının əsas sahələrində irəliləyişlər mövcud olmuşdur.

Rayonun iqtisadiyyatının əsas göstəriciləri cədvəldə qeyd olunduğu kimidir:

**min manatla**

| Göstəricinin adı | 2015-ci ilin 1-ci rübü | 2015-ci ilin 1-ci rübü 2014-cü ilin 1-ci rübünə nisbətən %-lə |
|---|---|---|
| Ümumi məhsul buraxılışı | 25870.4 | 95.8 |
| Sənaye məhsulunun (islərin xidmətlərin) ümumi həcmi | 3138.9 | 110.8 |
| Əsas kapitala yönəldilən investisiyalar | 1443.1 | 34.1 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 8958.2 | 108.8 |
| Nəqliyyat sektorunda yük daşınması min ton | 380 | 104.4 |
| Nəqliyyat sektorunda sərnişin daşınması min.sərnişin | 3429 | 106.1 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 261.4 | 105.8 |
| Pərakəndə əmtəə dövriyyəsi | 28690.0 | 106.1 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 5511.0 | 100.6 |
| Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı | 256 | 101.6 |

Cədvəldən göründüyü kimi ümumi məhsul buraxılışı keçən illə müqayisədə 4.2 faiz azalmışdır. Rüb ərzində bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 256 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən 1.6 faiz çoxdur.

## ƏHALİ

Rüb ərzində rayonda 476 nəfər uşaq doğulmuş, 175 nəfər ölüm qeydə alınmışdır. Təbii artım 301 nəfər olmuşdur. Rayona gələnlərin sayı 86 nəfər, rayondan gedənlər isə olmamışdır. Rüb ərzində əhalinin miqrasiya artımı 56 nəfər olmuşdur. 158 nigah qeydə alınmışdır. Boşanmaların sayı 14 olmuşdur. 01 aprel 2015-ci il tarixi vəziyyətinə rayon əhalisinin sayı 93990 nəfər olmuşdur. Rayon əhalisinin 21272 nəfəri şəhərdə, 72718 nəfəri isə kənd yaşayış məntəqələrində yaşayır.

## KƏND TƏSƏRRÜFATI

Rayon iqtisadiyyatının əsas sahələrindən biri də kənd təsərrüfatıdır. Rayonun iqtisadiyyatında tərəvəzçilik, taxılçılıq, heyvandarlıq aparıcı rol oynayır. Kənd təsərrüfatının başqa sahələri də, yeni meyvəçilik, kartofçuluq və bostan məhsulları istehsalı da inkişaf etdirilir. Rayonun istifadəsində olan kənd təsərrüfatına yararlı torpaq sahəsi onun ərazisinin 66.9 faizini təşkil edir. Torpaq islahatı nəticəsində 15568 ailə 24268 hektar torpaq payına sahib olmuşdur. Orta hesabla hər ailəyə 1.6 hektar torpaq sahəsi verilmişdir. Rayonda uğurla aparılan aqrar islahatlar nəticəsində 19 sovxoz və bir kökəltmə məntəqəsi ləğv edilmiş, onlara məxsus torpaq sahəsi və əmlak əhaliyə paylanmışdır. Eyni zamanda ötən dövr ərzində müxtəlif təşkilatı hüquqi formalı 119 yeni kənd təsərrüfatı müəssisəsi yaradılmışdır.

İqtisadiyyatın bazar münasibətlərinə keçdiyi bir şəraitdə sənayeni xammalla, əhalini isə ərzaqla təmin etmək üçün ölkəmizdə kənd təsərrüfatı sahəsini daha da inkişaf etdirmək ən əhəmiyyətli və vacib şərtlərdən biridir. Kənd təsərrüfatının əsas sahələrindən biri bitkiçilikdir. 01 aprel 2015-ci il tarixə rayonda 174 hektar sahədə yazlıq bitkilər səpilmişdir. Bunun 48 hektarı dənli və dənli paxlalılar, 86 hektarı çoxillik otlar, 20 hektarı tərəvəz, 20 hektarı yoncadır.

2015-ci ilin 1-ci rübündə heyvandarlıq məhsulları istehsalı aşağıdakı cədvəldə göründüyü kimidir.

| s/N | Məhsulun adı | Ölçü vahidi | 2015-ci ilin 1-ci rübü | 2014-cü ilin 1-ci rübü | Fərq +- |
|---|---|---|---|---|---|
| 1 | Ət (diri çəkidə) | ton | 1352 | 1124 | +228 |
| 2 | Süd | ton | 7453 | 7348 | +105 |
| 3 | Yumurta | min ədəd | 2538 | 2477 | +61 |
| 4 | Yun | ton | - | - | - |

| | 01.01.2002 | 01.01.2013 | 01.04.2015 | 01.04.2014 | 01.04.2015 01.04.2014 cu ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|
| İribuynuzlu mal-qara | 29938 | 30019 | 30254 | 30181 | 100.2 |
| O cüm: inək və camışlar | 15497 | 15611 | 16018 | 15690 | 102.1 |
| Qoyun və keçilər | 152614 | 144928 | 144060 | 143631 | 99.6 |

Cədvəldən göründüyü kimi rüb ərzində keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 228 ton, süd istehsalı 105 ton, yumurta istehsalı 61 min ədəd artmışdır. Bu artım əsasən əhali təsərrüfatlarının hesabına olmuşdur. Mal-qaranın baş sayı aşağıdakı cədvəldəki kimidir:

## SƏNAYE

2015-ci ilin 1-ci rübündə rayonun sənaye təşkilatlarında 3072.8 min manatlıq və ya müqayisəli qiymətlərlə əvvəlki ilin müvafiq dövründə olduğundan 10.8 faiz çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Görülmüş işlərin 420.6 min manatlığı B seksiyasına, 566.2 min manatlığı C seksiyasına, 1964.8 min manatlığı D seksiyasına, 121.2 min manatlığı isə E seksiyasına aiddir. Sənaye sahəsində məhsul istehsalının seksiyalar üzrə müqayisəsi aşağıdakı diaqramda göstərildiyi kimidir.

İl ərzində sənaye müəsisələrində 807 nəfər işçi çalışmış, 652907 manat məbləğində əmək haqqı verilmişdir. Bir işçiyə düşən orta aylıq nominal əmək haqqı 305.0 manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 0.3 faiz azdır. 1 nəfərə düşən aylıq nominal əmək haqqı özəl sektorda azalmış, dövlət sektorunda isə artmışdır. Sənaye təşkilatlarında natura ifadəsində məhsul istehsalı aşağıdakı cədvəldəki kimidir:

| Məhsul növünün adı | ölçü vahidi | 2015-ci ilin 1-ci rübü | 2014-cü ilin 1-ci rübü | 2015-ci il 2014-cü ilə nisbətən %-lə |
|---|---|---|---|---|
| Qum, çınqıl | ton | - | 555 | - |
| Bentonit gili | “---------” | 3380 | 6769 | 49.9 |
| Xalça | kv.metr | 30 | 40 | 75.0 |
| Divar, yumşaq, yataq və mətbəx mebelləri | ədəd | 1196 | 510 | 2.3 dəfə |
| Mişar daşı | ton | 5625 | 3928 | 143.2 |
| Şərab | min.dal | 0.2 | - | - |
| Çörək | ton | 160 | 130 | 123.1 |
| Qazlı su | min.dal | 26.7 | 24.4 | 109.4 |
| Elektrik enerjisi | min.kv.s | 26.4 | 25.0 | 105.6 |
| Qaz | min.kub.m | 35.7 | 21.1 | 169.2 |
| Su | min.kub.m | 311.3 | 316.3 | 98.4 |
| Meyvə,tərəvəz (dondurulmuş) | ton | - | 1.9 | - |

01 aprel 2015-ci il vəziyyətinə 857.3 min manatlıq sənaye məhsulu qalığı olmuşdur. Mal qalığı natura ifadəsində aşağıdakı kimidir:

Bentonit gili: 50048.3 ton
Təmiz spirt: 10700 dekalitr
Dondurulmuş tərəvəz 200.7 ton

## ƏSASLI TİKİNTİ

2015-ci ilin 1-ci rübündə rayonda istifadəyə verilmiş əsas fondların dəyəri 387.0 min manat, əsas kapitala yönəldilmiş investisiyaların həcmi 1504.2 min manat, tikinti quraşdırma işlərinin həcmi 1443.1 min manat təşkil etmişdir. Rüb ərzində 33 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir ki, bunun da 24-ü kənd yerindədir. Yaşayış evlərinin ümumi sahəsi 4873 kv/m, yaşayış sahəsi 2004 kv/m-dir. İstifadəyə verilmiş yaşayış evlərinin dəyəri 365.5 min manatdır. Rüb ərzində 4 mənzil özəlləşdirilmişdir. Özəlləşdirilən mənzillərin ümumi sahəsi 284.3 kv.metrdir.

2015-ci ilin 1-ci rübü ərzində tikinti müəssisələri öz gücləri ilə 333.5 min manatlıq iş görmüşdür ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 97.3 faiz təşkil edir.

## İSTEHLAK BAZARI

Rüb ərzində Qazax rayonunda 3 iri, 61 kiçik ticarət, xidmət müəssisəsi 200 ticarət yerinə malik kənd təsərrüfatı məhsulları bazarı və hüquqi şəxs yaratmadan fərdi sahibkarlıqla məşğul olan 2310 fiziki şəxs ticarət fəaliyyəti göstərmişdir. Rüb ərzində rayonun istehlak bazarında əhaliyə 34201 min manatlıq istehlak malları satılmış və pullu xidmət göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksi 106.1 faiz olmuşdur. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 100.6 faiz olmuşdur.

Pərakəndə ticarətin quruluşu aşağıdakı kimidir:

Rüb ərzində Qazax rayonunda pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 28690 min manat olmuşdur. Pərakəndə əmtəə dövriyyəsinin 11.2 faizi hüquqi şəxslərin 59.0 faizi kənd təsərrüfatı bazarının, əşya və qarışıq mallar yarmarkasının, 29.8 faizi hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər tərəfindən yaranmışdır. Rüb ərzində rayon əhalisinin hər bir nəfəri tərəfindən ticarət şəbəkələrindən 306 manatlıq istehlak malları alınmışdır. Hər bir sakinə 59 manatlıq pullu xidmət göstərilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən rayon əhalisinə 423 min manatlıq iaşə xidmətləri göstərilmişdir.

## NƏQLİYYAT

Rayonun iqtisadiyyatında nəqliyyatın rolu artmaqdadır. Rüb ərzində nəqliyyat müəssisələri və fiziki şəxslər tərəfindən əldə olunmuş göstəricilər qənaətbəxşdir. Rüb ərzində nəqliyyat sektorunda məhsul buraxılışı fiziki şəxslər üzrə 1156 min manat olmuşdur ki, bu da ümumi məhsul buraxılışının 5.1faizini təşkil etmişdir. Keçən ilin müvafiq dövründə bu göstərici 1300 min manat olmuşdur. Rüb ərzində yük daşınmasının həcmi 380 min ton olmuş bu da əvvəlki illə müqayisədə 4.4 faiz çoxdur. Rüb ərzində 3429 min nəfər sərnişin daşınmışdır. Bu da keçən ildən 6.1% çoxdur

## RABİTƏ

Rüb ərzində rabitə sektorunda məhsul buraxılışının faktiki qiymətlərlə həcmi 260 min manat olmuşdur. Rabitədən əldə edilmiş gəlirin 211.6 min manatı və ya 81.4 faizi rayon əhalisinə göstərilmiş xidmətlərin hesabına yaranmışdır. Araşdırılan dövrd əldə edilmiş gəlirin 20.9 faizi şəhərlərarası və beynəlxalq rabitədən, 21.1 faizi şəhər telefon rabitəsindən, 29.0 faizi kənd telefon rabitəsindən, 29% isə abunə haqqından əldə edilmişdir. Əhalidən əldə edilmiş gəlirin həcminin 23.4 faizi şəhərlərarası və beynəlxalq telefo rabitəsindən, 16.7 faizi şəhər telefon rabitəsindən, 36.5 faizi kənd telefon rabitəsindən, 23.4 faizi abunə haqqından olmuşdur. Rüb ərzində poçt rabitəsindən 75.2 min manatlıq gəlir əldə olumuşdur ki, bunun da 70.5 min manatı əhali tərəfindən ödənilmiş xidmətin dəyəridir. Rüb ərzində 4499 poçt göndərişi həyata keçirilmişdir. Daxil olan poçt göndərişi 3155 ədəd olmuşdur. Poçt müəssisələri tərəfindən 271 ədəd poçt bağlaması göndərilmiş, 3506 bağlama isə daxil olmuşdur. Daxil olan bağlamanın 16 beynəlxalq bağlama olmuşdur. 129 ədəd sürətli poçt göndərişi həyata keçirilmişdir.

## ƏMƏK BAZARI

2015-ci ilin 1-ci rübü ərzində rayonda 47.8 min nəfər iqtisadi fəal əhali olmuşdur. İqtisadi fəal əhalinin 47.1 min nəfəri iqtisadiyyatda məşğul olanlar, 740 nəfəri isə məşğulluq orqanlarında rəsmi qeydiyyatda olan işsizlərdir. Məşğul olan əhalinin 11500 nəfəri və yaxud 24.9 faizi muzdla işləyir. Muzdla işləyənlərin 3200 nəfəri maddi istehsal sahələrində, 8300 nəfəri isə xidmət sahələrində çalışır. Fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin 80.1 faizi dövlət, 19.9 faizi qeyri-dövlət mülkiyyət növləri üzrə işləyir. İqtisadi fəaliyyət növlərinə uyğun olaraq muzdla işləyən işçilərin 5.0 faizi kənd təsərrüfatında, 5.9 faizi sənayedə, 1.2 faizi tikintidə, 2.9 faizi topdan və pərakəndə ticarətdə, 6.6 faizi nəqliyyat və rabitədə, 1.0 faizi maliyyə vasitəçiliyində, 5,9 faizi dövlət idarəetməsi və məcburi sosial təminatda, 39.8 faizi təhsildə, 20.2 faizi səhiyyədə, 9,3 faizi kommunal və sosial xidmətlərində, 2,2 faizi digər fəaliyyət sahələrində olmuşdur.

## YENİ İŞ YERLƏRİNİN AÇILMASI

Azərbaycan Respublikası “Regionlarının sosial-iqtisadi inkişafı dövlət Proqramı”na uyğun olaraq rayonda yeni iş yerlərinin açılması ardıcıl olaraq davam edir. 2003-cü ildən 2015-ci ilin 1-ci rübünün sonunadək rayonda 8959-u daimi olmaqla 11045 yeni iş yerı açılmışdır. 2015-ci ilin 1-ci rübü ərzində 306 yeni iş yeri açılmışdır ki, bunun da 168-i daimi iş yeri, 138-i isə müvəqqəti iş yeridir.

**Faiq PAŞAYEV,**
**Qazax rayon Statistika İdarəsinin rəisi.**

# “Bir adın var: Fövqəlbəşər”

**Mərkəzləşdirilmiş Kitabxana Sistemi ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Bir adın var: Fövqəlbəşər ”adlı Ümumrespublika Kitab Bayramı keçirmişdir. Rayon Mədəniyyət Mərkəzinin qarşısında keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin məsul işçiləri, gənc idmançılar, rayon ictimaiyyətinin nümayəndələri, fəal oxucular, təhsil və mədəniyyət işçiləri, KİV nümayəndələri iştirak etmişdir.**

Kitab bayramında ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolunu, onun tariximiz, mədəniyyətimiz, kitabxanalar haqqında dediyi sözləri, Azərbaycan dilini, tarixini, mədəniyyətini əks etdirən “Bir adın var: Fövqəlbəşər”, Respublika Prezidenti İlham Əliyevin 2015-ci il üzrə yubileyləri keçiriləcək elm, mədəniyyət xadimlərinin, görkəmli şəxslərin həyat və fəaliyyətini əks etdirən “Torpağa düşməsin havayı bir dən, Çörək bol olarsa basılmaz Vətən”, “Hərb tariximizin sönməz Günəşi”, “Əzəli-əbədi torpağımsan, Qarabağ”, “Turan Mübarizi”, “Unutma”, “Bakı 2015 I Avropa Oyunları-Azərbaycan Prezidentinin apardığı uğurlu siyasətin qələbəsidir”, “Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən”, “Müstəqilliyimizin parlaq səhifəsi”, “Dilimiz milli varlığımızdır”, “Şairlər vətəni Qazaxım mənim”, “Dünya şöhrətli müğənni”, ”Əlağa Vahid-120” və s. başlıqlı sərgilərdə 1000-dən çox kitab nümayiş etdirilmişdir.

Azərbaycanın Dövlət Himni səsləndirilmişdir.

MKS-nin direktoru Solmaz Babanlı tədbiri giriş sözü ilə açaraq qeyd etmişdir ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin nəticəsidir ki, son illərdə milli dəyərlərimizin qorunub saxlanılması, mədəniyyətimizin, o cümlədən kitabxanalarımızın inkişafı istiqamətində mühüm addımlar atılır. Bu uğurlu siyasətin nəticəsidir ki, Azərbaycan son illərdə bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edir və onların öhdəsindən layiqincə gəlir. Bakı 2015 I Avropa Oyunlarının ölkəmizdə keçirilməsi Azərbaycanın siyasi cəhətdən stabil, iqtisadi cəhətdən güclü, mədəni cəhətdən zəngin olmasının göstəricisidir.

Mədəniyyət və Turizm şöbəsinin müdiri Valeh Vəliyev, rayon İcra Hakimiyyətinin məsul işçisi Fariz Vəliyev, MİHİ Qazax rayon Komitəsinin sədri İsgəndər Qurbanov, Gənclər və İdman İdarəsinin rəis müavini Sahib Namazov, şair-dramaturq Fuad Babanlı çıxış edərək ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş kitab bayramının əhəmiyyətindən, kitabın insanın mənəvi tərbiyəsindəki böyük və əvəzolunmaz rolundan danışmışlar.

Sonra şəhər 1 və 3 saylı tam orta məktəb, məktəb-lisey şagirdləri ulu öndərə, Azərbaycana, kitaba həsr olunmuş şeirlər söyləmişlər. Qazax şəhər “BİOMEN” idman klubunun Respublika dərəcəli məşqçisi Rəşad Əhmədovun rəhbərliyi ilə Azərbaycan qol güləşi, jimm, üçnövlük idman növləri ilə gənc idmançılar müxtəlif maraqlı çıxışlar etmiş, şəhər 1 və 2 saylı musiqi məktəbinin saz sinfinin şagirdlərinin ifasında qədim el havaları səsləndirilmişdir. Mədəniyyət mərkəzinin rəqs qrupu maraqlı nömrələrlə çıxış etmişdir.

Sonda tədbir iştirakçıları Qazax Dövlət Rəsm Qalereyasının gənc rəssamlarının əl işlərindən, Tarix Diyarşünaslıq muzeyinin eksponatlarından, kitab və jurnallardan ibarət sərgi ilə tanış olmuşlar.

**Münəvvər SÜLEYMANLI,**
**MKS-nin direktor müavini**

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun VI Qrand Müsabiqəsi çərçivəsində qalib olmuş “Könlüm keçir Qarabağdan” adlı layihənin icrası ilə əlaqədar rəsm müsabiqəsi elan olunur.

AZƏRBAYCAN GƏNCLƏR FONDU

Müsabiqə Ağstafa, Qazax və Tovuz rayonlarını əhatə edir.

Müsabiqənin şərtləri:

1. Müsabiqə iştirakçılarının yaşı 14 yaşdan 29 yaşa qədər olmalıdır.
2. Müsabiqəyə təqdim edilən rəsm işinin ölçüsünə məhdudiyyət qoyulmur.
3. Rəsmin işlənmə texnikası rəngkarlıq, qrafika və ya qarışıq texnika olmalıdır.
4. Rəsm işlərinin mahiyyəti Qarabağın dünəni, bu günü, sabahı, onunla bağlı arzu və düşüncələri, füsunkar təbiəti, maddi və mənəvi sərvətlərini əhatə etməlidir.
5. Hər bir iştirakçı 2 (iki) rəsm işi ilə iştirak edə bilər.

Hazır rəsm işləri 25 iyul 2015-ci il tarixdən gec olmayaraq şəxsən və ya poçt vasitəsi ilə doldurulmuş məktuba əlavə (Anket) və şəxsiyyət vəsiqəsinin surəti ilə birlikdə Ağstafa şəhər Heydər Əliyev Mərkəzinə təqdim olunmalıdır.

İştirakçıların hər biri sertifikat, münsiflər heyəti tərəfindən xüsusilə seçilən işlər diplom və hədiyyələrlə təltif ediləcəkdir.

Müsabiqənin sonunda böyük bir tədbir, sərgi və təqdim edilən rəsm işlərindən ibarət kataloq çapı nəzərdə tutulmuşdur.

**Hörmətlə:**
**Murad Babakişizadə**
**Layihə rəhbəri**
**Əlaqə: (051) 986 08 10,**
**muradbabakishizade@gmail.com**

# FİZİKİ TƏRBİYƏ KURİKULUMLARI UĞURLA KEÇİRİLMƏKDƏDİR



**Azərbaycan Respublikası Təhsil Nazirliyinin ölkə məktəblərində kurikulumların tətbiqi və keçirilməsi ilə bağlı 3 iyun 2010-cu il tarixli məlum qərarından sonra təhsildə əsaslı keyfiyyət dəyişikliyi olmuşdur.**

Qazax rayon Təhsil şöbəsi də kurikulumların təşkili və keçirilməsinə xüsusi diqqət verməkdədir. Artıq rayonun bir çox müəllimləri məktəb və təhsil şöbəsi üzrə açıq dərslərini təşkil edir, qəzet və jurnallarda məqalələrlə çıxış edirlər.

Belə müəllimlərdən biri də İ.Şıxlı adına Kosalar kənd tam orta məktəbin fiziki tərbiyə müəllimi Rayət Əliyevdir. Rayət müəllim 1982-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyə İnstitutunu fərqlənmə diplomu ilə bitirib, elə həmin ildən də müəllimlik etməyə başlamışdır. 2013-cü ildə kurikulum kursunu yüksək balla başa vurub I dərəcəli Sertifikat almışdır. 2013-14-cü tədris ilində kurikulum üzrə dərsləri təlim etməyə başlayan Rayət müəllim fiziki tərbiyə kurikulumlarını şagirdlərinə yüksək səviyyədə mənimsədə bilmişdir. Elə həmin tədris ilində də açıq dərsini rayon səviyyəsinə çıxarmışdır.

Rayət müəllim 2014-2015-ci tədris ilində daha fəal çalışaraq növbəti dəfə daha bir mükəmməl açıq dərsini təqdim edə bilmişdir. Belə ki, 19 may 2015-ci il tarixdə Kosalar kənd tam orta məktəbinin futbol meydançasına oğlanlarla bərabər qızlar da “futbolka” geyimində çıxaraq meydançada top uğrunda mübarizə aparmışdır. Rayət müəllimin təqdim etdiyi bu açıq dərsin mövzusu futbol idmanı ilə bağlı olub “çeviklik” qabiliyyətini inkişaf etdirmək məqsədini daşımışdır. Sovet təhsil sistemində məktəblərdə qızların futbol oynamalarına təlimat yol vermirdi. Yeni təhsil sistemi isə qızların futbol idmanı ilə məşğul olmalarına imkanlar yaradır. Odur ki, Rayət müəllim ölkəmizdə qadın futbolunun inkişafı naminə dərslərdə qızların da oğlanlarla bərabər futbol oynamalarına xüsusi əhəmiyyət verir. Çeviklik qabiliyyətinin inkişaf etdirilməsində futbol idmanının əvəzsiz rolu olduğunu qeyd edən Rayət müəllimin futbolla bağlı qurduğu bu açıq dərsi də uğurla başa çatmışdır. Açıq dərsdə məktəbin VIb sinfi təmsil olunurdu. Açıq dərsdə rayon Təhsil şöbəsinin fiziki tərbiyə üzrə metodisti Pərviz Alməmmədov, ibtidai siniflər üzrə metodist Orxan Əliyev, fiziki tərbiyə müəllimlərindən Bayramxatın Rəhimova, Hüseyn Hüseynov və Akif Alıyev iştirak etmişdir.

Şagirdlərin futbol marşı ilə meydançaya çıxmaları, “Yallı” musiqisinin sədası altında kompleks (32 saylı) hərəkətlərin yerinə yetirilməsi və qızların oğlanlarla bərabər daha çox çeviklik göstərmələri diqqəti cəlb etmişdir. Bu dərs YouTube-yə yüklənmişdir. Giriş kodu belədir: aciq ders.rayet eliyev

Uğurla keçən dərsin sonunda daha yaxşı futbol oyunu və daha çox çeviklik göstərən şagirdlərdən Təranə Süleymanova, Südabə Məmmədova və Əziz Quluyev hədiyyələrlə mükafatlandırılmışdır.

Rayət müəllimin fikrincə “çevik” oğlan və qızların yetişməsi həm gələcək qadın futbolunun inkişafına, həm də Vətənin müdafiəsinndə. itirilmiş torpaqların geri qaytarılmasında böyük rolu olacağına əminliyini bildirmişdir. Odur ki, biz Rayət müəllimə gələcək işlərində uğurlar arzulayırıq.

**“GÖYƏZƏN”**

## İTMİŞDİR

Qazax rayon Texniki İnventarizasiya İdarəsi tərəfindən Hüseynov Şəmil Əli oğlunun adına verilmiş inventar nömrəsi JN 352 № li qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20 TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr) MOB: (055) 621-03-53

KAPİTAL BANK BANK HESAB № AZ69AİİB33010019443660233136 VÖEN: 4200134061 KOD: 200361 QEYDİYYAT №442 TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, “SQ” mətbəəsində çap edilib. Fotolar: Salmanındır.